# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 13** **Bakı şəhəri, 14 yanvar 2022-ci il**

***"Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli 142 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin "Minimum aylıq əməkhaq-qının məbləğinin artırılması və "Minimum aylıq əməkhaqqının artırıl-ması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1265 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2021-ci il 17 dekabr tarixli 3051 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli 142 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 755; 2005, № 12, maddə 1224; 2007, № 2, maddələr 180, 186; 2008, № 2, maddə 120, № 7, maddə 688; 2013, № 12, maddə 1631; 2018, № 2, maddə 344, № 3, maddə 609; 2019, № 2, maddə 367, № 8, maddə 1454) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin (xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) aylıq vəzifə maaşları 2022-ci il yanvarın 1-dən aşağıdakı məbləğdə müəyyən edilsin:

| Sıra №-si | | Aylıq vəzifə maaşının məbləği (manatla) |
|---|---|---|
| 1. | Ali kateqoriya dövlət orqanlarında | 370 |
| 2. | 1-ci kateqoriya dövlət orqanlarında | 355 |
| 3. | 2-ci və 3-cü kateqoriya dövlət orqanlarında | 335 |
| 4. | 4-cü və 5-ci kateqoriya dövlət orqanlarında | 315 |

**2.** Bu Qərarın 1-ci hissəsində qeyd olunan işçilərin mükafatlan-dırılması məqsədilə hər il növbəti il üçün təsdiq edilən dövlət büdcəsində onların çalışdıqları dövlət orqanlarında həmin işçilər üçün müəyyən olunmuş aylıq vəzifə maaşının 3 misli həcmində əlavə vəsaitlər nəzərdə tutulur.

**3.** Bu Qərar 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2022.- 19 yanvar.- S.8.